# Göyçay rayonunun sosial-iqtisadi inkişaf Proqramı (2004-2008-ci illər)

**Mündəricat**


| | Səh. |
|---|---|
| Azərbaycan Respublikası Göyçay rayon İcra Hakimiyyətinin başçısının sərəncamı | 2 |
| Göyçay rayonunun sosial-iqtisadi inkişaf Proqramı (2004-2008-ci illər) | 3 |
| Giriş | 3 |
| Göyçay rayonu haqqında qısa məlumat | 4 |
| **I Bölmə:** Sənaye və emal sahələri | 7 |
| **II Bölmə:** Kənd təsərrüfatı | 9 |
| **III Bölmə:** Sosial sahələr | 12 |
| *I Fəsil:* Təhsil sisteminin inkişafı | 12 |
| *II Fəsil:* Səhiyyə xidməti | 15 |
| *III Fəsil:* Mədəniyyət xidməti | 16 |
| **IV Bölmə:** Əmək ehtiyatlarından səmərəli istifadə və əhalinin məşğulluq probleminin həll edilməsi | 17 |
| **V Bölmə:** Xidmət sahələri | 19 |
| *IV Fəsil:* Əhalinin içməli su ilə təchizatının yaxşılaşdırılması | 19 |
| *V Fəsil:* Elektrik enerjisi və təbii qazla təchizatın yaxşılaşdırılması | 20 |
| *VI Fəsil:* Rabitə, Yol və Nəqliyyat xidmətləri, Şəhər təsərrüfatı | 22 |
| Y ekun | 24 |

Göyçay - 2004

**AZƏRBAYCAN RESPUBLİKASI**
**GÖYÇAY RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ SƏRƏNCAMI**

**№ 48**
**01 aprel 2004-cü il**

# Göyçay rayonunun sosial-iqtisadi inkişaf Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında» fərmanının icrasını təmin etmək məqsədilə **QƏRARA ALIRAM:**

1. Göyçay rayonunun sosial-iqtisadi inkişaf Proqramı (2004-2008-ci illər) təsdiq edilsin.
2. «Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanında yerli icra hakimiyyəti orqanları qarşısında duran vəzifələrin həyata keçirilməsini təmin etmək məqsədilə yaradılmış komissiyaya tapşırılsın ki, Proqramın icrasını təmin edən zəruri tədbirlər görsün.
3. Sərəncamın icrasına nəzarət rayon icra hakimiyyətinin başçısı N.İsmayılova tapşırılsın.

**Göyçay rayon İcra Hakimiyyətinin başçısı:**
**N. İsmayılov**

Göyçay rayon İcra Hakimiyyəti başçısının
01 aprel 2004-cü il tarixli 48 saylı sərəncamı
ilə təsdiq edilmişdir.

# GÖYÇAY RAYONUNUN SOSİAL İQTİSADİ İNKİŞAF PROQRAMI
# (2004-2008-ci illər)

## GİRİŞ

Azərbaycan dövlətinin qurucusu və yaradıcısı, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra həyata keçirdiyi siyasət nəticəsində ölkədə baş alıb gedən iqtisadi və siyasi böhranın qarşısı alınmış, Respublikamızın dövlət müstəqilliyi möhkəmlənmiş, Azərbaycanın demokratik dövlət quruculuğu yolu ilə irəliləməsinə geniş yol açılmışdır.

Həyata keçirilən islahatlar qısa bir zaman ərzində iqtisadiyyatda əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş və 1997-ci ildən başlayaraq dinamik iqtisadi inkişafı təmin etmək mümkün olmuşdur.

Bütün bunlara baxmayaraq ölkənin sosial iqtisadi həyatında həllini gözləyən bir sıra problemlər də mövcuddur ki, bu da əsasən regionların inkişafı ilə bağlıdır. Bu bir həqiqətdir ki, regional inkişafa nail olunmadan ölkənin hərtərəfli tərəqqisi qeyri mümkündür. Ölkənin hərtərəfli tərəqqisinin təmin edilməsi regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə oradakı ərnək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadədən çox asılıdır. Yalnız bu yolla regional iqtisadi inkişafa, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun azaldılmasına nail olmaq mümkündür.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi İnkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Prezident İlham Əliyev cənablarının 11 fevral 2004-cü il tarixli fərmanı bu sahədə atılan çox mühüm addımdır. Fərmanda göstərildiyi kimi, bu istiqamətdə həyata keçirilən tədbirlər regionların iqtisadi inkişafında mövcud olan kəskin fərqin aradan qaldırılmasını və regional tarazlığın əldə olunmasını təmin etməklə yanaşı onların iqtisadi gücünü artıracaq və sosial problemlərin həllini sürətləndirəcəkdir. Qarşıdakı illərdə regionların inkişafı üçün əsl fəaliyyət Proqramı olan bu mühüm dövlət sənədinin həyata keçirilməsi - Azərbaycan iqtisadiyyatının növbəti inkişaf mərhələsini təmin edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin göstərilən fərmanı ilə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» təsdiq edilmişdir. Həmin Proqramda iqtisadi rayonlar üzrə, o cümlədən Aran iqtisadi rayonuna daxil olan Göyçay rayonu üzrə həyata keçiriləcək tədbirlər öz əksini tapmışdır.

Fərmanda Dövlət Proqramının icrasını təmin edən zəruri tədbirlər görülməsi üçün yerli icra hakimiyyəti orqanları qarşısında konkret vəzifələr qoyulmuşdur. Bu vəzifələrin rayonda konkret şərait və xüsusiyyətlər nəzərə alınmaqla həyata keçirilməsi üçün Göyçay rayonunun 2004-2008-ci illər üçün sosial-iqtisadi inkişaf Proqramı tərtib edilmişdir.

Proqramın hazırlanmasının ali məqsədləri aşağıdakılardır:

- Göyçay rayonunda mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına nail olmaq;
- mövcud istehsal müəssisələrinin fəaliyyətini canlandırmaqla rayonun sənaye potensialından daha dolğun istifadə etmək;

- ixrac yönümlü məhsul istehsalına nail olmaq;

- rayonda sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsini daha da yaxşılaşdırmaq, əmək qabiliyyətli əhalinin, xüsusən gənclərin faydalı əməklə məşğulluğunu artırmaq.

Proqramda qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- uzun müddət fəaliyyətsiz qalmış sənaye müəssisələrini işə salmaq və burada yeni istehsal sahələri yaratmaq;

- yerli faydalı qazıntılardan və xammaldan daha səmərəli istifadə etmək;

- aqrar sahədə islahatların ikinci mərhələsini sürətləndirmək, toxumçuluq sahəsini inkişaf etdirmək, bitki mühafizəsi və aqrokimyəvi xidmət sahəsini yenidən qurmaq, damazlıq işlərini keyfiyyətcə yeni mərhələyə çatdırmaq, kəndli fermer təsərrüfatlarının və pay torpağı olan vətəndaşların kənd təsərrüfatı texnikası ilə təminatını yaxşılaşdırmaq;

- investorların istehsal sahələrinə vəsait qoymaları üçün əl-verişli şərait yaratmaq;

- əhalinin içməli su ilə təminatının, onlara göstərilən digər kommunal xidmətlərinin səviyyəsini yüksəltmək;

- yerli kənd təsərrüfatı məhsulları emalı sənayesini inkişaf etdirmək;

- əhaliyə göstərilən sosial xidmətin səviyyəsini yüksəltmək;

- əmək ehtiyatlarından səmərəli istifadə etməklə məşğulluq problemini həll etmək.

Beləliklə, «Göyçay rayonunun 2004-2008-ci illər üçün sosial-iqtisadi inkişaf Proqramı» Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında» fərmanının icrasını təmin etməyə, rayon iqtisadiyyatını inkişaf etdirməklə əhalinin sosial həyat tərzini yüksəltməyə xidmət edəcəkdir.

## GÖYÇAY RAYONU HAQQINDA QISA MƏLUMAT

Göyçay rayonu Azərbaycan Respublikasının mərkəzində, Şirvan düzünün şimal hissəsində Böyük Qafqaz dağlarının ətəklərində yerləşir. Rayon şimaldan cənuba təxminən 25 kilometr, şərqdən qərbə isə 40 kilometr uzanaraq 736 kvadratkilometr sahəni əhatə edir. Rayonun tərkibinə 1 şəhər, 55 kənd daxildir. Rayon mərkəzi Göyçay şəhəri Bakı-Qazax magistral yolunun 216 kilometrliyində, Ucar dəmiryolu stansiyasından 18 kilometr məsafədə yerləşir. Göyçay rayonu şimal-şərqdən İsmayıllı, cənub-şərqdən Kürdəmir, cənubdan Ucar və qərbdən Ağdaş rayonu ilə həmsərhəddir. 01 yanvar 2004-cü il tarixə rayon əhalisinin ümumi sayı 103, 6 min nəfərdir.

Göyçay əsl türk mənşəli söz olub sahilində yerləşdiyi Göyçay çayının adından götürülmüşdür. Çayın suyu həddindən artıq şəffaf olduğuna və göy (mavi) rənginə çaldığına görə belə adlandırılmışdır.

Göyçay şəhəri təxminən XX əsrin 30-cu illərində salınmağa başlanmışdır. XIX əsrin 50-ci illərində Şamaxıda baş verən zəlzələdən zərər çəkən əhalinin bir hissəsi bura köçmüş və bununla əlaqədar olaraq yaşayış məntəqəsi genişlənməyə başlamışdır. Çar hökumətinin Qafqazda inzibati islahatına əsasən 1867-ci ilin dekabr ayında Bakı Quberniyasının tərkibində Göyçay qəzası yaradıldı. Göyçay məntəqəsi 1916-cı ildə şəhər adlandırılmışdı. Azərbaycanın rayonlaşdırılması ilə əlaqədar 1930-cu ildə Göyçay rayonu təşkil edilmişdir.

Rayon iki geoloji rayona - dağlıq və düzənliyə ayrılır. Dağlıq zonaya Bozdağ Qaraməryəm tirəsini, düzənliklərə isə rayonun qalan ərazisini aid etmək olar. Ərazi geoloji quruluşuna görə Kaynazoy erasının üçüncü dövrünə, düzənlik sahəsi isə həmin eranın IV dövrünə aiddir. Ərazisinin bəzi sahələri isə müasir çöküntülərlə örtülmüşdür. Ümumiyyətlə rayon ərazisinin bütün səthini gil, gilliсəli torpaqlar, bəzən qum kimi çöküntülər 10-15 santimetr qalınlığında qat kimi örtür.

Göyçay çayı dərəsinin və Cəyirli kəndinin yaxınlığında çay daşı, çınqıl, qum çıxarılaraq tikintilərdə istifadə edilir. Bundan başqa, rayonun Qarabaqqal kəndinin ərazisində zəngin gil yataqları vardır ki, bundan da yüksək keyfiyyətli kərpic hazırlanır.

Göyçay rayonunun iqlimi yayı quru keçən mülayim-isti yarımsəhra və quru subtropik iqlim tipinə aiddir. Bu iqlim tipi zəif nəmliyi, mülayim qışı və isti-quru yayı ilə səciyyələnir. İllik yağıntının miqdarı 400-600 mm-dir.

Rayon ərazisindən Göyçay çayı və Yuxarı Şirvan kanalı keçir. Bitki örtüyündə çöl formasiyası geniş yer tutur. Dağlıq hissəsində kolluqlar vardır. Heyvanat aləmi o qədər də zəngin deyil.

Rayonun kənd təsərrüfatının əsasını taxılçılıq, pambıqçılıq, heyvandarlıq, baramaçılıq və meyvəçilik təşkil edir.

Kənd təsərrüfatına yararlı torpaqlar 46585 hektardır, bundan 24403 hektarı suvarılan torpaqlardır. Kənd təsərrüfatına yararlı torpaqların 21900 hektarı əkin, 3336 hektarı bağ, 21349 hektarı örüş torpaqlardır. Rayon ərazisindo torpaqların 28078 hektarı xüsusi mülkiyyətdə, 35397 hektarı bələdiyyə mülkiyyətində, 4777 hektarı isə dövlət mülkiyyətindədir.

Göyçay rayonu üzümçülük, baramaçılıq, heyvandarlıq və meyvəçilik sahəsində yüksək nəticələr əldə etmişdir.

Heyvandarlıq sahəsində islahatlara 1996-cı ildən başlanmış, ictimai təsərrüfatlarda olmuş 9798 baş mal-qara, o cümlədən 2498 baş ana mal, 5427 baş qoyun əmlak payı kimi kolxozçuların və sovxoz fəhlələrinin mülkiyyətinə verilmişdir.

Həmin vaxt vətəndaşların fərdi təsərrüfatlarında 29792 baş iri buynuzlu mal-qara, 24350 baş isə qoyun-keçi olmuşdur.

Heyvandarlıq sahəsində aparılan islahatlar qısa müddət ərzində öz müsbət səmərəsini vermişdir. Belə ki, ötən müddət ərzində rayon ərazisində iri və xırda buynuzlu mal-qaranın sayı xeyli artmış və hazırda rayon əhalisinin heyvandarlıq məhsullarına olan tələbatı daxili imkanlar hesabına tamamilə ödənilir.

2004-cü ilin yanvar ayının 1-i vəziyyətinə rayonda 44465 baş mal-qara və 53156 baş qoyun və keçi vardır ki, bu da aqrar islahatlara başlanan 1996-cı ilə nisbətən müvafiq olaraq 4875 baş və 23379 baş çoxdur.

Hazırda rayonda heyvandarlıq istiqamətli 20-yə qədər fermer təsərrüfatı vardır.

"Qarabulaq", "Turan", "Rəvan", "Aslan", Günəş", "Qəhrəman", "Asiman", "Ceyhun" fermer təsərrüfatlarında yüksək nəticələr əldə edilmişdir.

Rayonda ətlik və yumurtalıq istiqamətində quşçuluğu inkişaf etdirmək üçün yaxşı imkanlar vardır.

Hazırda rayonda 528 min başlıq broyler, 200 min başlıq və 45 min başlıq quşçuluq kompleksləri vardır.

İstər heyvandarlıq, istərsə də quşçuluq sahəsinin yemə olan tələbatını ödəmək üçün kifayət qədər örüş sahələri, həmçinin yüksək keyfiyyətli qüvvəli yem istehsal etmək üçün 100 tonluq yem zavodu vardır.

Göyçay süd zavodu rayonun ən müasir emal müəssisələrindəndir. 1998-ci ilin avqust ayında zavodun bazasında "Göyçay-Süd" Açıq Tipli Səhmdar cəmiyyəti yaradılmışdır.

Cəmiyyətin səhmlərinin 70 faizi müəssisənin əmək kollektivinin üzvləri və "Milk Pro" MMC şirkəti tərəfindən alınmışdır.

1999-cu ildə İsveçin "Tetra Laval kredit AB" şirkətinin mütəxəssisləri müəssisədə olmuş, buradakı vəziyyət təhlil edilmiş və müəssisənin bazasında tam bir zavod kompleksi tikmək və onu ən müasir texnoloji avadanlıqlarla təchiz etmək nəzərdə tutulmuşdur.

Artıq 3 milyon dollar dəyərində texnoloji avadanlıqlar zavoda gətirilmiş, quraşdırılmış və istismara verilmişdir. Müəssisədə 2002-ci ilin iyun ayından süd məhsullarının və həmin ilin oktyabr ayından meyvə şirələrinin istehsalına başlanıb.

Hazırda müəssisədə ən müasir tələblərə cavab verən 15 adda süd məhsulu və meyvə şirəsi istehsal edilir. Meyvə şirələri əsasən Rusiya, Ukrayna, Estoniya, Moldova, İsrail kimi ölkələrə göndərilir. 2003-cü ilin avqust ayından başlayaraq müəssisədə istehsal olunan süd məhsulları Gürcüstan Respublikasına ixrac edilir.

Rayonda yeni istehsal sahələri yaratmaq üçün kifayət qədər yerli xammal ehtiyatları vardır. Belə ki, rayonda hələ keçən əsrin əvvəllərində yerli gil xammalından yüksək keyfiyyətli örtük materialı - kirəmit istehsal olunurdu. Daha müasir texnoloji avadanlıqlar tətbiq etməklə şiddətli şaxtalara, doluya, həmçinin radiasiyaya qarşı davamlı dam örtüyü istehsalını bərpa etmək imkanları vardır. Yerli gildən həm də sanitariya qovşaqları üçün avadanlıqlar, tüstü boruları üçün boşluqlu kərpiclər, saxsı su boruları istehsal etmək olar.

Rayonun mövcud emal müəssisələrində yeyinti sənayesinin ən müxtəlif sahələrini inkişaf etdirmək üçün real şərait vardır.

Rayonda 36 məktəbəqədər müəssisə, 57 ümumtəhsil məktəbi, 13 mədəniyyət evi, 64 kitabxana, 1 muzey, 57 səhiyyə müəssisəsi, 1 musiqi məktəbi, 16 klub fəaliyyət göstərir.

Göyçay torpağı respublikamızın tarixinə tanınmış ictimai xadimlər, yazıçı-sənətkarlar və incəsənət işçiləri bəxş etmişdir.

Həbibi, Qantəmir, Rəsul Rza, Əli Kərim, Ənvər Məmmədxanlı, İsgəndər Coşqun, Anar, Əli Səmədli, İbrahim Göyçaylı kimi yazıçı və şairlərimiz belə adamlardandır.

Göyçay rayonunda onlarla elmlər doktoru, professor, elmlər namizədi, alim yetişmişdir.

Göyçay rayonunda xalqımızın tarixi keçmişini əks etdirən bir sıra abidələr vardır.

Bunlardan rayonun Ərəbcəbirli kəndi ərazisində XII-XIV əsrdə inşa edilmiş Ərəb xilafəti dövrünə aid "Surxay" qalasını, İnçə və Ərəbcəbirli kəndi ərazisində tapılmış bizim eradan əvvəl II əsrə aid küp qəbirlərinin qalıqlarını, XIX əsrin axırlarında inşa edilmiş yer hamamını və 4 məscidi göstərmək olar.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göyçaylılar yaxından iştirak etmişlər.

Ermənistan silahlı birləşmələrinə qarşı döyüşlərdə göyçaylılar 163 şəhid vermiş, 44 nəfər itkin düşmüş, 106 nəfər şikəst olmuşdur.

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi işlədiyi müddətdə 3 dəfə Göyçay rayonunda olmuş, hər gəlişi zamanı rayon üçün bir sıra qlobal problemlərin həlli üçün müvafıq tapşırıqlar vermiş və onların həlli təmin olunmuşdur.

1972-ci ildə rayonda olarkən Göyçay şəhərinin sakinləri şəhəri sel sularından mühafizə etmək məqsədi ilə şəhəri ikiyə bölən Arvan çayının qarşısında bənd tikilməsini xahiş etmişdir. Cənab Heydər Əliyevin tapşırığına əsasən, qısa müddətdə şəhərin şimal hissəsində, Arvan dərəsinin qarşısında bənd inşa edilmiş və həmin bənd 25 ildən artıqdır ki, şəhəri sel sularından etibarlı mühafizə edir. Cənab Heydər Əliyev 1978-ci ildə rayonda olarkən Törə və Çərmədil dağlarında əkinə yararlı torpaqların suvarma suyu ilə təminatı probleminin həll edilməsi üçün lazımi göstəriş vermiş və qısa müddət ərzində 800 hektar torpaq sahəsi rayonun əkin dövriyyəsinə daxil edilmişdir.

1982-ci ildə Heydər Əlirza oğlu Əliyev Göyçay rayonunda olarkən rayon sakinləri həyətyanı toraq sahələrində becərdikləri nar məhsulunun dövlət tərəfindən emal üçün tədarükünün yaxşılaşdırılmasını, əhalinin yeni iş yerləri ilə təmin olunmasını xahiş etmişlər. Onun sərəncamı ilə elə həmin ildə də Göyçay nar emalı zavodunun tikintisinə başlanmış və zavodun qısa müddət ərzində istifadəyə verilməsi təmin olunmuşdur.

Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin şəxsi tapşırığına əsasən 2003-cü ildə Göyçay rayonunda Respublika üçün strateji əhəmiyyəti olan Göyçay çayı üzərində körpü keçidi istifadəyə verilmiş, 2001-ci ildən Göyçay şəhərini sel sularından müdafiə

edən bəndin tikintisinə başlanmış, bu günə qədər 586 metr uzunluğunda beton bənd çəkilmişdir.

## I Bölmə: Sənaye və emal sahələri

Göyçay kənd təsərrüfatı rayonu olmaqla bərabər, Göyçay şəhərində güclü sənaye potensialı mövcuddur. Göyçay toxuculuq kombinatı, Konserv zavodu, Qida məhsulları kombinatı, Avtomobil təmiri zavodu vaxtı ilə Respublikanın bu profilli ən iri müəssisələrindən olmuşdur. Bu müəssisələrdə istehsal olunan məhsulların potensial alıcıları keçmiş SSRİ-nin müttəfiq respublikaları olmuşdur. 90-cı illərdə məlum hadisələrlə əlaqədar mövcud iqtisadi əlaqələrin qırılması, müəssisələrin istehsal etdikləri məhsulların satılması üçün bazar probleminin kəskinliyi rayon sənayesini böhran vəziyyətinə gətirib çıxarmışdır. Bu Proqramın hazırlanmasında əsas məqsədlərdən biri də rayonun mövcud sənaye potensialından daha dolğun və səmərəli istifadə etməkdir.

Birinci növbədə beynəlxalq standartlara cavab verən rəqabət qabiliyyətli mevə şirələrinin, xüsusən nar şirəsinin, mürəbbə və tərəvəz konservlərinin istehsalı üçün imkanlar axtarılmalıdır. Hazırda xarici investorları cəlb etmək yolu ilə sənaye müəssisələrində yenidənqurma işləri aparmaq, mövcud istehsal sahələrini modernləşdirmək yolu ilə rayonun sənaye potensialının daha da artırılması üçün bir sıra imkanlar mövcuddur.

2004-2008-ci illərdə rayonda şərab, konserv və digər ərzaq sənaye məhsullarının istehsalı istiqamətində ixtisaslaşmış kiçik və orta sənaye müəssisələri yaradılacaqdır. Xüsusən yerli sahibkarların və fermerlərin təsərrüfatlarında istehsal edilmiş kənd təsərrüfatı məhsullarının emal sənayesinə daha çox diqqət veriləcəkdir. Meyvəçilik, taxılçılıq, üzümçülük, ipəkçilik və heyvandarlıq məhsulları istehsalı *və* emalı inkişaf etdiriləcəkdir. Rayonun mövcud tikiş fabrikində yenidənqurma işlərinin aparılması və burada rəqabət qabiliyyətii tikiş məhsullarının istehsalı nəzərdə tutulur.

Rayonda yerli xammaldan istifadə etməklə tikinti materialları sənayesinin inkişaf etdirilməsi üçün əlverişli şərait vardır. Rayon ərazisində tükənməz gil yataqları vardır və hələ 19-cu əsrdə bu gildən istifadə edilməklə hazırlanmış kərpic və kirəmitdən, saxsı qablardan bölgədə geniş istifadə edilmişdir.

Bundan əlavə, Göyçay çayının yatağında zəngin çınqıl ehtiyatı vardır. Mövcud qum-çınqıl karxanalarının yenidən qurulması, daha müasir bu profilli sənaye müəssisələrinin yaradılması rayonda tikinti materiallarının istehsalını əsaslı surətdə artıracaqdır. Bu Proqrama əsasən rayonda kərpic istehsalı il ərzində 30 milyon ədədə, doğranmış çınqıl istehsalı 60 min kub metrə çatdırılacaq, tikinti təşkilatlarının bazasında 2008-ci ilə qədər 40 min kub metr dəmir beton məmulatı istehsal edən sexlər yaradılacaqdır.

Həmçinin müvafiq texnologiyası olan xarici investorları cəlb etməklə yerli xammaldan üzlük materialları, sanitar avadanlıqları, saxsı qablar istehsal edən müştərək müəssisələr yaradılacaqdır. Rayon üçün qeyri-ənənəvi olan sənaye məhsulu istehsalına diqqət artırılacaq, keçmiş Avtomobil təmiri zavodunun bazasında elektronika sənayesi məhsulları istehsal edən müəssisə yaradılacaqdır.

Heyvandarlıq məhsulları emalı sahəsində «Göyçay-Süd» ASC-nin fəaliyyəti daha da gücləndiriləcək, burada dünya standartlarına cavab verən və xarici bazar üçün nəzərdə tutulan məhsul istehsalı xeyli artırılacaqdır. Bütövlükdə rayon sənayesi-nin keyfiyyətcə yeni səviyyəyə qaldırılması üçün aşağıdakı tədbirlər görüləcəkdir.

| № | Görüləcək işin məzmunu | İcra müddəti | Məsul icraçılar |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1 | Meyvəçilik, taxılçılıq, üzümçülük, ipəkçilik və heyvandarlıq məhsullarının emal sənayesinin inkişaf etdirilməsi məqsədilə kiçik və orta müəssisələrin istifadəyə verilməsi | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti, yerli icra və bələdiyyə orqanları |
| 2 | Toxuculuq və tikiş məhsulları istehsalının inkişafının dəstəklənməsi | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti, yerli icra və bələdiyyə orqanları |
| 3 | Şərab, konserv və digər ərzaq sənaye məhsullarının dəstəklənməsi<br>- Göyçay Konyak zavodunun spirt istehsalı sexində yeni avadanlıqların quraşdırılması<br>- Şərab xammalı üçün 22 hektar sahədə yeni üzüm bağının salınması<br>- Üzüm qəbulu, şərab emalı və şərab doldurma sexlərinin tikilməsi<br>- Qida məhsulları kombinatında meyvə şirələrini şüşə qablara doldurmaq üçün axın xəttinin istifadəyə verilməsi<br>- Yeni nar emalı sexinin işə salınması<br>- Yeni limonad sexinin işə salınması<br>- Şərab sexinin istifadəyə verilməsi | 2004-2008-ci illər<br>2005-ci il<br>2006-2007-ci illər<br>2008-ci il<br>2005-ci il<br>2006-2007-ci illər<br>2007-ci il<br>2008-ci il | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti, yerli icra və bələdiyyə orqanları<br>«Göyçay-Konyak» SC-ti<br>«Göyçay-Konyak» SC-ti<br>«Göyçay-Konyak» SC-ti<br>Qida məhsulları kombinatı<br>Qida məhsulları kombinatı<br>Qida məhsulları kombinatı<br>Qida məhsulları kombinatı |
| | - Göyçay Konserv zavodunun yenidən qurulması, müəssisənin bazasında yeni istehsal və tədarük sahələrinin yaradılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, rayon İcra hakimiyyəti, «Göyçay Kon-serv» SC-ti |
| 4 | Rayonun gil ehtiyatlarından yüksək keyfiyyətli kərpic, dam örtüyü, saxsı qablar, keramika məmulatı, üzlük tavaları, sanitariya qovşaqları hazırlanmasında istifadə edilməsinin dəstəklənməsi | 2004-2007-ci illər | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Rayon İcra Hakimiyyəti, yerli icra və bələdiyyə orqanları |
| 5 | Keçmiş Avtomobil təmiri zavodunun bazasında elektronika sənayesi məh- | 2004-2007-ci illər | İqtisadi İnkişaf Nazirliyi, «Kontinental-Kotton» fırması, Maliyyə Nazirliyi, Rayon İcra |

| | | | |
|---|---|---|---|
| | sulları istehsalının dəstəklənməsi | | Hakimiyyəti, yerli icra və bələdiyyə orqanları |
| 6 | «Göyçay-Süd» ASC-də dünya standartlarına cavab verən məhsul istehsalını təmin etmək məqsədilə yeni pendir sexinin tikilməsi | 2004-2007-ci illər | «Göyçay-Süd» ASC-ti, rayon İcra Hakimiyyəti |
| 7 | «Göyçay-Süd» ASC-də istehsal olunan məhsulların keyfiyyətli saxlanmasını təmin etmək məqsədilə 4 ədəd yeni hazır məhsul anbarının tikilməsi | 2005-2007-ci illər | «Göyçay-Süd» ASC-ti, rayon İcra Hakimiyyəti |
| 8 | «Göyçay-Süd» ASC-də mövsüm zamanı gündəlik meyvə qəbulu həcmini artırmaq məqsədilə 2 ədəd yeni meyvə qəbulu xəttinin quraşdırılması | 2004-2005-ci illər | «Göyçay-Süd» ASC-ti, rayon İcra hakimiyyəti |
| 9 | Göyçay kərpic zavodunda yenidənqurma işlərinin aparılması | 2005-2006 -cı illər | «Kərpic SAN LTD» Məhdud Məsuliyyətli Müəssisə, rayon İcra Hakimiyyəti |
| 10 | Çörək zavodunda iki ədəd «PXS» markalı peçin istifadəyə verilməsi | 2006-cı il | «Göyçay-Çörək» SC-ti |
| 11 | Makaron və şirniyyat istehsalı sexlərinin yenidən qurulması | 2007-ci il | «Göyçay-Çörək» SC-ti |

## II Bölmə: Kənd təsərrüfatı

Göyçay rayonunda aqrar islahatlar başa çatdırılmış, əmlak özəlləşdirilmiş, torpaq kəndlilərə verilmişdir. Hazırda əsas vəzifə ondan ibarətdir ki, fermerlərin və pay torpağı olan ayrı-ayrı şəxslərin təsərrüfatlarında kənd təsərrüfatı məhsullarının istehsalı artırılsın.

Tərtib edilmiş Proqramın əsas vəzifələrindən biri aqrar sektorda islahatların ikinci mərhələsini sürətləndirməkdən ibarətdir. Bu məqsədlə aşağıdakı tədbirlər həyata keçiriləcəkdir.

- rayonda toxumçuluğun inkişaf etdirilməsi;
- bitki mühafizəsi və aqrokimyəvi xidmət sahəsinin yenidən qurulması;
- damazlıq işinin müasir tələblər səviyyəsinə çatdırılması;
- baytarlıq xidmətinin yenidən təşkili;
- kənd təsərrüfatı məhsullarının emal müəssisələrinin inkişaf etdirilməsi;
- aqrar sənaye kompleksi müəssisələri və fermer təsərrüfatları üçün dövlətin maliyyə yardımı Proqramlarının həyata keçirilməsi, sahibkarlara mikrokreditlər verən bank birliklərinin yaradılması;
- aqroservis xidmətləri şəbəkəsinin yaradılması;

- suvarma suyu ilə təminatın yaxşılaşdırılması üçün yeni su təsərrüfatı obyektlərinin tikilməsi;

- torpaqların mühafizə tədbirlərinin həyata keçirilməsi;

Rayonun kənd təsərrüfatında ənənəvi sahələr olan taxılçılığın, meyvəçiliyin, ipəkçiliyin inkişafına xüsusi diqqət göstəriləcəkdir. Tərtib edilmiş Proqrama əsasən 2004-2008-ci illərdə əsasən aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

| № | Görüləcək işin məzmunu | İcra müddəti | Məsul icraçılar |
|---|---|---|---|
| 1 | Rayonlaşdınlmış və yerli şəraitdə yüksək məhsuldar meyvə bağlarının mühafizəsi və əkin sahələrinin genişləndirilməsi | 2004-2008 -ci illər | Rayon İcra Hakimiyyəti, yerli icra və bələdiyyə orqanları, kəndli fermer və fərdi təsərrüfatlar |
| 2 | Meyvə bağlarının xəstəlik və ziyanvericilərdən kompleks mühafizəsi üçün bitkilərin mühafizəsini elmi əsaslarla təmin etməklə həyata keçirmək, rayonda Dövlət inhisarında olan zəhərli kimyəvi maddələrin satışı bazasının təşkilinə nail olmaq | 2004-2008 -ci illər | Rayon İcra Hakimiyyəti, bitki mühafizə stansiyası, karantin məntəqəsi, yerli icra və bələdiyyə orqanları, kəndli fermer və fərdi təsərrüfatlar |
| 3 | Rayonda taxıl əkini sahələrini 15,6 min hektardan 17 min hektara, ümumi nıəhsul yığımını 39 min tondan 45 min tona çatdırmaq | 2008-ci ilədək | Rayon İcra Hakimiyyəti, yerli icra və bələdiyyə orqanları, kəndli fermer və fərdi təsərrüfatlar |
| 4 | Taxıl toxumçuluğunda qayda yaratmaq, bu məqsədlə taxıl toxumçuluğu üzrə ixtisaslaşdırılmış özəl təsərrüfat yaratmaqla onun maddi-texniki bazasını möhkəmləndirmək | 2005-2008-ci illər | Rayon İcra Hakimiyyəti, Ucar ərazi kənd təsərrüfatı idarəsi |
| 5 | Kənli fermer və fərdi təsərrüfatlarda süfrə və texniki üzüm sortlarının əkin sahələrini genişləndirmək, bu məqsədlə kiçik sahibkarlığın inkişafı üçün dövlət yardımının alınmasına nail olmaq, üzüm emalını modernləşdirmək | 2005-2008-ci illər | Rayon İcra Hakimiyyəti, yerli icra və bələdiyyə orqanları, kəndli fermer və fərdi təsərrüfatlar |
| 6 | Kənd təsərrüfatının ənənəvi sahəsi olan ipəkçiliyi dirçəltmək, onun yem bazasını bərpa etməklə istehsal həcminə uyğunlaşdırmaq, barama istehsalı həcmini 5 tondan 60 tona çatdırmaq | 2005-2008-ci illər | Rayon İcra Hakimiyyəti, «Şəki-İpək» ASC, yerli icra və bələdiyyə orqanları, kəndli fermer və fərdi təsərrüfatlar |

| | | | |
|---|---|---|---|
| 7 | Heyvandarlıqda damazlıq və süni mayalama işlərini gücləndirmək, mal-qaranın, xüsusən ana malın baş sayını artırmaq, mal-qaraya göstərilən baytarlıq xidmətinin səviyyəsini yüksəltmək, mal-qaranın baş sayını 44,5 mindən 55 minə, davarların sayını 53 mindən 90 min başa çatdırmaq, rayon əhalisinin heyvandarlıq məhsullarına olan tələbatının daxili imkanlar hesabına ödənilməsini təmin etmək | 2005-2008-ci illər | Rayon İcra Hakimiyyəti, baytarlıq idarəsi, baytarlıq laboratoriyası, yerli icra və bələdiyyə orqanları, kəndli fermer və fərdi təsərrüfatlar |
| 8 | Kənd yaşayış məntəqələrinin suvarma suyu ilə təminatının etibarlılığını artırmaq üçün Göyçay çayında nizamlayıcı qurğunun inşa edilməsi | 2004-2007-ci illər | Dövlət Tikinti və Arxitektura Komitəsi, Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Rayon İcra Hakimiyyəti |
| 9 | R-9 suvarma kanalının sel sularından mühafizəsi məqsədi ilə 50 metr məsafədə beton bəndin qurulması | 2004-cü il | Rayon İcra Hakimiyyəti, rayon suvarma sistemləri idarəsi |
| 10 | Bığır kəndinin sel sularından mühafizəsi, «Xan arxı»nın əsaslı təmizlənməsi işlərinin başa çatdırılması | 2004-cü il | Rayon İcra Hakimiyyəti, rayon suvarma sistemləri idarəsi |
| 11 | Çaxırlı kəndini suvarma suyu ilə təmin edən arxın Göyçay çayının sel sularmdan qorunması üçün 50 metr uzunluğunda beton bəndin tikilməsi | 2004-cü il | Rayon İcra Hakimiyyəti, rayon suvarma sistemləri idarəsi |
| 12 | Təsərrüfatlararası arxların, QK-6, QK-7 VƏ QK-15 kollektorlarının suötürmə qabiliyyətini artırmaq məqsədilə lil və müxtəlif çöküntülərdən təmizlənməsi | 2004-2008-ci illər | Rayon İcra Hakimiyyəti, rayon suvarma sistemləri idarəsi, maşın meliorativ stansiya |

| | | | |
|---|---|---|---|
| 13 | Göyçay «Aqrotexservis» SC-də nıüxtəlif təyinatlı aqroservis xidmətlərinin yaradılması, kənd təsərrüfatı texnika və aqreqatlarının əsaslı və cari təmir olunması üçün müasir tipli servis sexlərinin açılması, kənd təsərrüfatı maşınlarının alqı-satqısı üzrə satış bazasının yaradılması və onun tərkibində həmin texnikaların uzunmüddətli icarəyə verilməsinin təşkil olunması | 2004-2007-ci illər | Rayon İcra Hakimiyyəti, Göyçay «Aqrotexservis» ASC-ti |
| 14 | Kənd təsərrüfatı maşın və texnikalarına bilavasitə yerlərdə texniki xidmət göstərmək məqsədilə zonalar üzrə aqroservis xidmətlərinin yaradılması | 2004-2006-cı illər | Rayon İcra Hakimiyyəti, Göyçay «Aqro-texservis» SC-ti, yerli icra və bələdiyyə orqanları |

## III Bölmə: Sosial sahələr

### I Fəsil: Təhsil sisteminin inkişafı

Göyçay rayonunun təhsil sistemi son illər xeyli inkişaf etmiş, orta təhsil müəssisələrinin sayı artmış, təhsildə irəliləyişlər əldə edilmişdir. Bununla yanaşı təhsilin maddi-texniki bazasını günün tələbləri səviyyəsində qurmaq mümkün olmamış, tədris müəssisələrinin bir çoxunun əsaslı təmirə, yeni sinif otaqlarının tikintisinə ciddi ehtiyacı vardır. Digər tərəfdən, pedoqoji işçilərin hazırlıq səviyyəsi müasir tələblərə tam cavab vermir, şagird-müəllim, müəllim-valideyn münasibətlərində qarşılıqlı əlaqə zəifdir. Bütün bunlar təhsilin qarşısına qoyulmuş məqsədin həyata keçirilməsinə mane olmaqla təhsil islahatının tələblərinin dolğunluqla icrasında çətinlik yaradır. Rayon təhsilinin strkuturunun və məzmununun yeniləşməsini, Dövlət Proqramında nəzərdə tutulmuş tapşırıqların yerinə yetirilməsini təmin etmək məqsədilə aşağıdakı tədbirlər həyata keçiriləcəkdir:

- rayonun məktəblərində təhsilin keyfıyyətinin yaxşılaşdırılması;
- şagirdlərin pulsuz dərsliklərlə təmin edilməsi;
- məktəbəqədər təlim-tərbiyyə, təhsil sisteminin təkmilləşdirilməsi;
- şəhərdə və kənd yaşayış məntəqələrində yeni məktəblərin və sinif otaqlarının inşa edilməsi, mövcud məktəblərin əsaslı təmir olunması;
- məktəblərin texniki və kadr təminatının yaxşılaşdırılması;

2004-2008-ci illərdə rayon təhsilinin keyfiyyətcə yeni pilləyə qaldırılması üçün aşağıdakı tədbirlər həyata keçiriləcəkdir.

